**Mahir Tapdıq oğlu Abbaszadə**

**UOT:338.4;JEL:L66;L67.**

# Regionlarda ərzaq təminatının yaxşılaşdırılması məsələləri

***Xülasə***

*Tərtib olunmuş məqalədə regionlarda ərzaq təminatı üzrə mövcud vəziyyət araşdırılmış və onun yaxşılaşdırılması məsələlərinə baxılmışdır. Tədqiqatın əsas məqsədi Azərbaycanda regionlarda ərzaq təminatının yüksəldilməsinin mühüm istiqamətlərini müəyyənləşdirməkdir. Tədqiqatın metodologiyası kimi təhlil olunan sahə üzrə məlumatların iqtisadi-statistik tədqiqi seçilmişdir.Məqalənin tətbiqi əhəmiyyəti alınan nəticələrin ölkə üzrə ərzaq təminatının yaxşılaşdırılmasında istifadəsinin mümkünlüyüdür. Tədqiqatın nəticələri kimi ölkənin ərzaq təhlükəsizliyinin yüksəldiulməsində aqrar sektorun inkişafının vacib olduğu göstərilmişdir. Aparılmış tədqiqat əsasında elmi yeniliklər kimi regionların ərzaq təminatının yüksəldilməsinin ölkənin aqrar sektorunun inkişafına müsbət təsir göstərməsi elmi baxımdan əsaslandırılmışdır. Məqalədə eyni zamanda regionlarda ərzaq təminatının yaxşılaşdırılması istiqamətində mövcud problemlər araşdırılmış, onların aradan qaldırılması istiqamətləri göstərilmişdir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, qiymətləndirmə, inteqrasiya, inkişaf, innovasiya, investisiya, iqtisadiyyat, tənzimləmə*

## Giriş

Son illər bütün dünya ölkələrində ərzaq təminatının yaxşılaşdırılması ən əhəmiyyətli iqtisadi məsələlərdən hesab olunur. Məsələn, ölkəmizdə davamlı olaraq həyata keçirilən iqtisadi tədbirlər içərisində əhalinin ərzaq təminatının yaxşılaşdırılması məsələləri əsas prioritetlərdən biri kimi qəbul olunur. Ölkəmizdə hər il regionlar üzrə kənd təsərrüfatı mallarının istehsal həcminin artması milli ərzaq təhlükəsizliyinin qorunmasında mühüm rol oynayır. Ona görə də bu sahə daim dövlətin diqqət mərkəzindədir. Son dövrlər yanacaq və enerji daşıyıcılarının qiymətlərinin dünya bazarında azalması hər bir ölkənin sosial-iqtisadi inkişafına birbaşa təsir etmişdir. Müvafiq poseslər hər bir ölkənin milli ərzaq bazarında qiymət dəyişilmələrinə səbəb olmuşdur. Ölkə rəhbərinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması nəzərdə tutulmuşdur. Bundan başqa qeyd edilən dövlət proqramında ərzaq təminatının regional şəbəkələrinin formalaşdırılması da nəzərə alınmışdır. Müvafiq proqram nəzərdə tutulan dövr ərzində uğurla icra olunaraq tamamlanmışdır [6].

## Regionlarda ərzaq təhlükəsizliyinin təmini məsələləri

Məlum olduğu kimi son illər regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində dövlət tərəfindən silsilə tədbirlər həyata keçirilməkdədir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında, o cümlədən özəl sektorun inkişafı istiqamətində də sistemli islahatlar son illər intensiv olaraq ildə davam etdirilməkdədir. Regionlar üzrə mikro, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində məqsədəuyğun tədbirlər həyata keçirilməkdədir. Onların fəaliyyətinin genişləndirilməsi üçün güzəştli kreditlərlə təmin olunması prosesi davam etdirilməkdədir. Belə ki, 2019-2020-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları



© Mahir Tapdıq oğlu Abbaszadə i.f.d., AMEA İqtisadiyyat İnstitutu. E-mail: zeynalovamexriban@mail.ru
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vasitəsilə orta hesabla ümumi dəyəri 450 milyon manat olan 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat güzəştli kredir verilmşdir. Eyni zamanda 857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit ayrılmışdır. Yeni investisiya layihələrinin həyata keçirilməsi 3800-dək yeni iş yerinin açılmasını təmin etmişdir. Ümumi olaraq ayrılan güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye istehsalı və digər sahələrin inkişafına yönəldilmişdir. Güzəştli kreditlərin ümumi strukturunda 66% regionların payı təşkil etmişdir [6].

**Diaqram 1.**

**Azərbaycanda ÜDM-un həcminin dəyişmə dinamikası (mlrd. ABŞ dolları)**




Mənbə: Diaqram statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [5].

Azərbaycanda aparılan uğurlu iqtisadi islahatıar nəticəsində son dövrlər ÜDM-in artma tempində ciddi irəliləyişlər əldə olunmuşdur. Məsələn, 2005-ci ildə Azərbaycanın ÜDM həcmi 13,2 mlrd. ABŞ dolları olmuşdursa, 2010-cu ildə bu göstərici artaraq 52,9 mlrd. ABŞ dolları təşkil etmişdir. 2015-ci ildə müvafiq göstərici 53 mlrd. ABŞ dolları, 2018-ci ildə isə azalaraq 47,1 mlrd. ABŞ dolları təşkil etmişdir (Diaqram 1). Bunun da əsas səbəbi dünya bazarında neft-az məhsullarının qiymətinin aşağı düşməsi nəticəsində büdcə daxilolmalarının azalmasıdır. 2019-cu ildə ÜDM-in artımı əvvəlki dövrlə müqayisədə artaraq 48,0 mlrd. ABŞ dollarına çatmışdır [5]. Ölkəmizdə ÜDM üzrə iqtisadi artımın əsas səbəbi regionlarda qeyri-neft sektorunun dinamik olaraq inkişaf etməsi nəticəsində istehsal olunmuş məhsul və xidmətlərin həcminin və ixrac imkanlarının artması, rəqabətqabiliyyətli iqtisadi sahələrin formalaşması və s. hesab olunur. Aparılmış təhlillər onu göstərir ki, ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi bir sıra amillərdən asılıdır [1]. Bu proses eyni zamanda regionların sosial-iqtisadi inkişafından da asılıdır. Ölkəmizdə kənd təsərrüfatı məhsul istehsalı əsasən regionlar üzrə həyata keçirilir. Mərkəzi şəhərlərdə əsasən kənd təsərrüfatı məhsullarının istehlakı daha çox həyata keçirilir. Kənd təsərrüfatı məhsullarının istehsalı isə əsas etibarilə, regionlarda olan bu sahə üzrə olan infrastruktur sistemləri vasitəsilə təmin olunur [4].

**Diaqram 2.**

**Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də dəyişən dinamikası (%)**




Mənbə : Diaqram statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır [5].

Aparılmış təhlillər onu göstərir ki, Azərbaycanda ÜDM-in strukturunda kənd təsərrüfatı sahəsinin faizlə payı hər il yüksəlməkdədir. Məsələn, 2003-cü ildə kənd təsərrüfatı sahəsinin ÜDM-in payı 12,4 faiz olmuşdur (Diaqram 2). Bundan başqa ,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

respublikamızda 2014-cü ildə ÜDM-in strukturunda kənd təsərrüfatının payı 5,4% olmuşdur. Növbəti 2015-ci ildə bu göstərici artaraq 6,2%-ə çatmışdır. 2018-ci illə müqayisədə 2019-cu ildə bu göstərici artaraq 5,7% olmuşdur [5]. Nəzərə almaq lazımdır ki, ciddi iqtisadi islahatların aparılması, mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, bu sahənin ixrac imkanlarının yüksəldilməsi zəruridir. Ümumiyyətlə, ölkənin ərzaq təminatının formalaşdırılması bir sıra amillərdən asılıdır. Regionlarda zəruri istehsal, emal, infrastruktur şəbəkəsinin genişləndirilməsi zəruridir. İqtisadi baxımdan inkişaf etmiş ölkələrdə regionlarda ərzaq məhsulları istehsalının genişləndirilməsini təmin etmək məqsədilə, güclü iqtisadi sahələr üzrə infrastruktur sistemləri yaradılır. Bundan başqa bu infrastruktur sistemləri əsas etibarilə, istehsal, emal, xidmət sefralarını özündə ehtiva edir. Regionlarda infrastruktur sistemlərinin inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən təşkilati, iqtisadi formada yardımlar həyata keçirilir. Son illər müxtəlif məqsədli proqramlar çərçivəsində regionlarda ərzaq təminatı tədbirlərinin genişləndirilməsi istiqamətində ciddi iqtisadi tədbirlərin həyata keçirilməsi ölkənin iqtisadi inkişafına müsbət təsir etmişdir [2].

**Ərzaq təminatının regional sistemlərin formalaşmasında rolu**

Ümumiyyətlə, ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında dövlətin qanunvericilik təminatları mühüm rol oynayır. Məsələn, postsovet məkanı ölkələrində ərzaq təminatının regioanl sistemlərini formalaşdırmaq məqsədilə xüsusi qanunvericilik aktları qəbul olunmuşdur. Qəbul olunmuş qanunvericilik aktları da əsas etibarilə, həmin regionlarda istehsalçılar, satıcılar və emal müəssisələri arasında azad rəqabət mühitinin formalaşdırılmasına əlverişli hüquqi-iqtisadi mühitin yaradılmasını təmin etmişdir. Müvafiq istiqamətdə həyata keçirilən tədbirlər daxili bazarda yüksək qiymətlərin müəyyənləşdirilməsinin qarşısının alınmasına yönəldilmiş antiinhisar tədbirləri ilə tənzimlənir. Dövlət tərəfindən həyata keçirilən tədbirlər kənd təsərrüfatı məhsullarının tədarükünü də nəzərdə tutur. Ölkəmizdə ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında vergi və kredit sisteminin təkmilləşdirilməsi prosesləri də mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, vergi və kredit münasibətlərinin təkmilləşdirilməsi, regionlarda fəaliyyət göstərən istehsal, emal, və xidmət strukturlarının zəruri kapital resurslarına olan tələbatının ödənilməsinə əlverişli şərit yaradır. Ümumiyyətlə, dövlət regionlarda fəaliyyət göstərən qeyd olunan iqtisadi sahələrin fəaliyyətinin subvensiyalaşdırılmasına və bu sahədə tənzimləyici münasibətləri həyata keçirir. Bundan başqa dövlət kənd təsərrüfatı sahəsinin subsidiyalaşdırılmasına və onların səmərəli istehsal, satış prosesinin həyata keçirməsinə də dəstək olur [3]. Həyata keçirilən səmərəli tədbirlər əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində də mühüm rol oynayır. Eyni zamanda ərzaq təminatının regional sisteminin formalaşdırılmasına dövlətin hüquqi və iqtisadi yardımları birbaşa regionlarda istehsal səviyyəsinin yüksəldilməsinə də imkan verir. Bu proseslər eyni zamanda regionların ərzaq bazarlarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə və istehlakçıların sosial maraqlarının qorunmasına imkan verir. Postsovet ölkələrinin təcrübəsi onu göstərir ki, ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında səmərəli marketinq xidmətinin təşkili zəruridir. Düzgün marketinq siyasətinin həyata keçirilməsi regionlarda fəaliyyət göstərən istehsalçıların daxili və xarici ərzaq bazarlarında baş verə bilən dəyişiklikləri öncədən araşdırmağa imkan verir. Ümumiyyətlə, ölkədə səmərəli marketinq xidmətlərinin və informasiya-məsləhət xidmətlərinin təşkili ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında mühüm rol oynayır. Aparılmış təhlil onu göstərir ki, regionların ərzaq bazarlarında səmərəli marketinq xidmətinin təşkili və istehsalçıların həmin xidmətlərə olan tələbatının ödənilməsi, son olaraq məhsulun maya dəyərində bir sıra



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xərclərin azalmasına gətirib çıxarır. Bu proseslərin həyata keçirilməsi məhsul istehsalsalçılarının gəlirlərinin artmasına, iqtisadi səmərəliliyin təmin edilməsinə və son nəticədə ərzaq bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə əlverişli şərait yarada bilər. Ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında marketinq xidmətlərinin həyata keçirilməsi əsasında örənilməsi, iqtisadi proqnozların işlənməsi, bazar infrastrukturlarının təhlili, istehlakçıların tələbatlarının ödənilməsi zəruridir. Ərzaq təminatının regional sistemlərin formalaşdırılmasında istər daxili və istərsə də xarici ərzaq bazarlarının fəaliyyətinin kompleks tədqiqi edilməsi vacibdir. Ərzaq bazarlarında olan iqtisadi vəziyyətin tədqiq edilməsində əsas məqsəd ilk növbədə qiymət dəyişmələrinə qarşı səmərəli tədbirlərin öncədən həyata keçirilməsidir. Nəzərə almaq lazımdır ki, ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında səmərəli satış və qiymət siyasəti də birbaşa təsir edir. Müvafiq iqtisadi siyasət istehlakçıların tələbatının tədqiq edilməsinə imkan verir. Ümumi tələblərin səviyyəsinə uyğun olaraq ərzaq bazarlarına əmtəə təklifinin həyata keçirilməsi təmin olunur. Məsələn, kənd təsərrüfatı üzrə satış kanallarının formalaşdırılması istehsal olunmuş məhsulun keyfiyyətinin yüksəldilməsinə və ixrac imkanlarına mühüm təsir edir. Azərbaycanın regionları üzrə aqrar-ərzaq bazarlarında düzgün marketinq proqramlarının işlənib hazırlanması bu sahədə fəaliyyət göstərən bazarların fəaliyyətinin səmərəli araşdırılmasından asılıdır. Aqrar-ərzaq bazarlarında baş verən iqtisadi dəyişikliklər daha çox nəzərə alınır. Bu dəyişikliklərə uyğun olaraq, yerli əmtəə istehsalçılarının mütənasib qiymət siyasəti formalaşdırılır. Sabit qiymətlərin formalaşdırılması, nəticə etibarilə, yerli məhsulun rəqabətqabiliyyətinə, satış səviyyəsinə təsir göstərir. İstehlakıların məhsullar üzrə tələbatının formalaşdırılması və satışın stimullaşdırılmasına yönəlik siyasətin həyata keçirilməsi vacib şərtdir. Azərbaycanda aparılan torpaq və aqrar islahatlar nəticəsində regionda yaşayan əhalinin çox hissəsi torpaq və digər daşınmaz əmlak sahibinə çevrilmişdir. Aparılmış təhlillər onu göstərir ki, aqrar sahədə çalışan insanların əlində ilkin kapitalın az olması, eyni zamanda aqrar sektorun inkişafına da təsir edir. Kənd-təsərrüfatı üzrə texnikanın, servisin, məsləhət xidmətlərinin, infrastrukturun, emal müəssisələri-nin və s. kifayət qədər olmaması qeyd edilən sahənin inkişafını, ixarac imkanlarını məhdudlaşdırır. Bu baxımdan ərzaq təminatının regional sistemlərinin formalaşdırılması zəruridir. Bu istiqamətdə dövlət tərəfindən zəruri stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi də aqrar sahənin inkişafını təmin edə bilər. Ölkəmizdə ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında ərzaq məhsullarının iqtisadi əlçatanlığının yüksəldilməsi də vacibdir. Ümumiyyətlə, regionlarda ərzaq məhsullarının istehsalının artırılması ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi prosesinə ciddi nəzarət olunmalıdır. Bu istiqamətdə regionlarda az xərc hesabına istehsal məhsullarının həcminin artırılması da təmin olunmalıdır.

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən demək olar ki, ərzaq təhlükəsizliyinin sosial aspektləri ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatlarının ödənilməsi imkanları kimi səciyyələnir. Bundan başqa ərzaq təhlükəsizliyinin sosial aspektləri bilavasitə ölkə əhalisinin ödəmə qabiliyyətli tələbinin səviyyəsi ilə şərtlənir. Nəzərə almaq lazımdır ki, ərzaq təhlükəsizliyinin sosial aspektləri əhalinin həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutan dövlətin sosial siyasəti vasitəsilə həyata keçirilir. Avropa Birliyi ölkələri arasında ərzaq təminatının regional sistemlərinin formalaşdırılması zamanı əhalinin aztəminatlı təbəqələrənin ərzaq məhsullarını əldə etmək imkanlarını yaxşılaşdırılması məqsədilə bir sıra güzəştli tədbirlər həyata keçirilir. Aztəminatlı vətəndaşlara ərzaq yardımlarının göstərilməsi də mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş dövlətlərdə məsələn, ABŞ, Böyük Britaniyada və Fransada bu cür proqramlar, əsas etibarilə, federal və regional



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

büdcələr vasitəsilə maliyyələşdirilir. Ərzaq təminatı üzrə regional sistemlərinin formalaşdırılması daxili və xarici bazarlarda yeril istehsalın rəqabətqabiliyyətinin yüksəldilməsinə imkan yaradır. Postsovet məkanı ölkələrində ərzaq təminatı üzrə regional sistemlərin formalaşdırılmasına daha çox vəsait ayrılır. Dövlət səviyyəsində bu cür tədbirlərin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Ölkədə yerli idarəetmə oraqanlarının fəaliyyətinin də bu istiqamətə yönləndirilməsi ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına da imkan verir. Nəticədə ölkənin ərzaq müstəqilliyi də təmin olunur. Hər bir ölkədə ərzaq təminatının regional sistemlərinin formalaşdırılması zəruridir. Bu proseslər ölkədə aqrar-ərzaq kompleksinin bazasının inkişafını da stimullaşdırır. Bu prosesin səmərəli həyata keçirilməsi kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi cəhətdən himayə edilməsindən daha çox asılıdır. Müasir bazar iqtisadiyyatı şəraitində dövlət tərəfindən zəruri qanunuvericilik bazasının işlənib hazırlanması vacibdir. Eyni zamanda gömrük və vergi siyasətinin kənd təsərrüfatı məhsul istehsalçılarının iqtisadi maraqlarına uyğunlaşdırılması vacibdir. Ümumiyyətlə, regionların ixtisalaşma səviyyəsinə uyğun olaraq kənd təsərrüfatı sahəsi üzrə məhsul istehsalının həyata keçirilməsi zəruridir. Eyni zamanda ərzaq təminatının regional sistemlərinin formalaşdırılmasında kənd təsərrüfatı məhsullarının qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi aktual məsələdir. Müasir bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsullarının qiymətləri tələb və təklif təşəkkül tapır. İqtisadi sahələr üzrə dövlətin qiymət tənzimlənməsi, əsas etibarilə, qiymətlərin səviyyəsinə dolayı yollarla təsir göstərilməsini, əhalinin alıcılıq qabiliyyətinin stimullaşdırılmasını əhatə edir. Məsələn, postsovet məkanı ölkələrində qiymətlərin yüksək olduğu mərkəzi bazarlara alternativ olaraq, yarmarkalar təşkili edilir. Nəticədə daxili bazarda qiymətlərin stabilləşdirilməsinə imkan yaranır. Aparılmış təhlillər onu göstərir ki, daxili ərzaq bazarlarına kifayət qədər ərzaq məhsulları daxil olur ki, bu da yerli istehsalçıların iqtisadi cəhətdən zərərlərinin artmasına imkan verir. Daxili bazarda yerli məhsullara olan tələbat ödənilmədikdə bu boşluq idxal kanallarının hesabına təmin olunur. Regionlarda fəaliyyət göstərən yerli əmtəə istehsalçılarına zəruri iqtisadi şəraitin yaradılmaması, eləcə də onların bazar problemləri ilə üzləşməsi ölkədə ərzaq probleminin yaranmasına gətirib çıxarır. Son illər yüksək vergi rüsumları bəzən regionlarda emal müəssisələrinin vergidən yayınmasına səbəb olur. Müvafiq halda emal müəssisələri daha çox gizli formada istehsal prosesi ilə məşğul olaraq yerli ərzaq bazarlarında fəaliyyət göstərirlər. Qeyd etmək lazımdır ki, müvafiq proses xüsusilə, ət və süd məhsulları istehsal edən emal müəssisələrinin fəaliyyətinə ciddi təsir edir.



**Nəticə**

Ümumiyyətlə. regionlarda ərzaq təminatının yaxşılaşdırılması aktual məsələlərdən hesab olunur. Aparılmış təhlillərə əsasən demək olar ki, emal müəssisələrinin gəlirlərinin artımı, son nəticədə kənd təsərrüfatında istehsalçıların gəlirlərinin artımına müsbət təsir edir. Postsovet məkanı ölkələrində kənd təsərrüfatı sektoru ilə emal müəssisələri arasında qarşılıqlı iqtisadi münasibətlərin olması vacib hesab olunur. Dövlət tərəfindən istehsal və emal müəssisələri arasında inteqrasiya münasibətlərinin tənzimlənməsi istiqamətində zəruri tədbirlər reallaşdırılmalıdır. Bu zaman dövlət səviyyəsində iqtisadi zərərlərə məruz qalan istehsalçıların və emalçıların maraqları daha çox himayə olunmalıdır. Məhz buna görə də kənd təsərrüfatı sahəsi üzrə xüsusən, mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, onların ixrac imkanlarının və rəqabət imkanlarının artırılması sahəsində stimullaşdırıcı məqsədəuyğun tədbirlərin həyata keçirilməsi zəruridir.

**Ədəbiyyat**

1. Alıyev İ.H., Məmmədova Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı: Elm, 2007, 227s.
2. Abdullayev K.N. İqtisadi təhlükəsizliyin təmin olunmasında rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması və inkişafı məsələləri // Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi (Beynəlxalq elmi-praktiki konfransın materialları) Azərbaycan Kooperasiya Universiteti, AMEA İqtisadiyyat İnstitutu, Bakı.: Kooperasiya nəşr., 2012, səh. 241
3. Гордиенко Д.А. Основы экономической безопасности государства. Москва, изд-во «Финансы и статистика», 2009, 221 с.
4. Экономическая безопасность. Москва, ЮНИТИ, 2010, 295 с.
5. www.stat.gov.az/ kənd təsərrüfatı _2020
6. https://www.economy.gov.az/region/

***Махир Тапдыг оглу Аббасзаде***
***Доктор философии по экономики, Институт Экономики НАНА***

***Вопросы улучшения продовольственного обеспечения регионов***

***Резюме***

*В статье исследуется текущая ситуация с продовольственным обеспечением в регионах и рассматриваются пути ее улучшения. Основная цель исследования - выявить важные направления для повышения продовольственной безопасности в регионах Азербайджана. В качестве методологии исследования было выбрано экономико-статистическое изучение данных по анализируемой территории. Важность применения статьи заключается в возможности использования результатов для повышения продовольственной безопасности в стране. Результаты исследования показывают, что развитие аграрного сектора важно для повышения продовольственной безопасности страны. В статье научно обосновано положительное влияние увеличения предложения продуктов питания в регионах на развитие аграрного сектора страны как научного новшества. В статье также исследуются существующие проблемы повышения продовольственной безопасности в регионах и показаны пути их устранения.*

***Ключевые слова:*** *продовольственная безопасность, оценка, интеграция, развитие, инновации, инвестиции, экономика, регулирование.*

***Mahir Tapdiq oglu Abbaszade***
***PhD in Economics, Institute of Economics of ANAS***

***Issues of improving food supply in the regions***

***Summary***

*The article examines the current situation with food supply in the regions and considers ways to improve it. The main purpose of the study is to identify important areas for improving food security in the regions of Azerbaijan. Economic-statistical study of data on the analyzed area was chosen as the methodology of the research. The importance of the application of the article is the possibility of using the results to improve food security in the country. The results of the study show that the development of the agricultural sector is important in improving the country's food security. Based on the research, it was scientifically substantiated that the increase in food supply of the regions has a positive impact on the development of the country's agricultural sector as a scientific innovation. The article also examines the existing problems in improving food security in the regions, and shows ways to eliminate them.*

***Key words:*** *food safety, evaluation, integration, development, innovation, investment, economy, regulation*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.06.2021.***
***Çapa qəbul olunub: 22.06.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*